**Ali Baş Komandan İlham Əliyev bu günlərdə cəbhə bölgəsindən - müzəffər ordumuzun aprel ayında işğaldan azad etdiyi yüksəkliklərdən xalqımıza mesaj verdi: ölkə və millət olaraq birinci növbədə Qarabağ müharibəsində itirdiyimiz torpaqları hərb yolu ilə geri qaytarmağa tam hazırıq! Aprel döyüşləri də göstərdi ki, bunun üçün həm ölkə rəhbərliyinin siyasi iradəsi, xalqın mübarizə ruhu, həm də bu şərəfli vəzifəni ən qısa müddətdə yerinə yetirməyə qadir təşkilatlanmış, qüdrətli Silahlı Qüvvələrimiz var! Nəhayət, bu gün Azərbaycanın haqq mübarizəsinə başlaması üçün həm iqtisadi potensialı, həm də beynəlxalq səviyyədə ciddi dəstəklənən hüquqi-siyasi arqumentləri mövcuddur!**



# Ali Baş Komandana və qələbəyə böyük inam

## *Aprel döyüşlərinin nəticələri Azərbaycan cəmiyyətində vətənpərvərlik hissini və vətəndaş məsuliyyətini dəfələrlə yüksəltdi*

Bədnam qonşularımız tərəfindən cəlb edildiyimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin 30 ilinə yaxınlaşırıq. İllər, aylar sürətlə biri-birini əvəzləsə də, fakt faktlığında qalır: zorən hərbi münaqişəyə cəlb edilmiş Azərbaycanın 20 faizdən artıq ərazisi hələ də işğal altındadır, bir milyondan çox soydaşımız doğma yurdlarına dönmək həsrətilə - qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. 22 illik atəşkəs rejiminə baxmayaraq, əslində, müharibə indi də bitməyib - düşmən, demək olar, hər gün təxribata əl ataraq cəbhə bölgəsindəki mövqelərimizi atəşə tutur, amma layiqli cavab alaraq yerində oturdulur.

Fəqət, bu gün hər bir azərbaycanlının birmənalı qəbul etdiyi danılmaz həqiqət də var: biz müharibədə deyil, döyüşdə müvəqqəti uğursuzluğa düçar olmuşuq! Bəli, biz real hərb meydanında Ermənistana uduzmamışıq! Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycandakı hakimiyyət boşluğundan, nizami ordunun olmamasından istifadə edən Ermənistan havadarlarının köməyi ilə döyüş meydanında müvəqqəti üstünlük qazana bilib. Xocalıda misli görünməmiş soyqırımı aktı törədib. Şuşanı, Laçını, Ağdamı, Kəlbəcəri və digər rayonlarımızı işğal edib.

Həmin dövrlər çoxdan geridə qalıb. Biz bu gün milli iradəmizi toplayaraq hər an düşməni gəldiyi yerə qədər qovmağa, ərazilərimizi işğaldan azad etməyə qadirik - 2016-cı ilin aprel döyüşləri bunun əyani sübutu oldu!

Aprelin əvvəllərində qısamüddətli, çevik və mütəşəkkil hərbi əməliyyatlarla düşmənin bir sıra mövqelərini ələ keçirən, hərbi obyektlərini darmadağın edən, yaşayış məntəqələrimizi işğaldan azad edən müzəffər Silahlı Qüvvələrimizin əzm və rəşadəti uzun illərdir ki, bu anı gözləyən xalqımızın hədsiz sevincinə, vətənpərvərlik və milli qürur hisslərinin alovlanmasına səbəb oldu.

Bir sıra strateji yüksəkliklər də daxil olmaqla, 2000 hektardan çox ərazinin döyüş əməliyyatları ilə geri qaytarılması düşmənin zəif ordusunu və ictimaiyyətini psixoloji baxımdan sındırdı, ciddi ruh düşkünlüyünə, bədbinliyə səbəb oldu. Ermənilərin kömək üçün havadarlarına təcili müraciət etmələri də bunun əyani göstəricisi idi!

Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradə və qətiyyətini, habelə xalqımızın böyük dəstəyini hiss edən Silahlı Qüvvələrimiz son illərin ilk irimiqyaslı hərbi əməliyyatlarında yüksək taktiki-strateji hazırlıq səviyyəsi və işğal altında olan torpaqlarımızı azad etmək əzmi nümayiş etdirərək sınaqdan üzüağ çıxdı!

Azərbaycan Ordusunun qısa zamanda həyata keçirdiyi uğurlu hücum əməliyyatları - düşmənin çoxlu sayda canlı qüvvəsinin və zirehli texnikasının, habelə hərbi bazalarının güclü atəş zərbəsi ilə məhv edilməsi, strateji əhəmiyyətli ərazilərimizin geri qaytarılması insanların böyük coşqusu, sevinci və mənəvi dəstəyi ilə qarşılandı.

Rəşadətli hərbçilərimizlə görüşən Ali Baş Komandan İlham Əliyev bunu xüsusi vurğulayaraq demişdir: *"Bu ilin aprel ayında Ermənistan dövlətimizə, xalqımıza qarşı növbəti silahlı təxribat törətmişdir. Qəhrəman Azərbaycan Ordusu - xalqımızın əsgər və zabitləri bu təxribata layiqli cavab vermişdir, uğurlu əks-hücum əməliyyatı keçirərək düşmənə sarsıdıcı zərbələr vurmuşdur və Azərbaycanın işğal altında olan torpaqlarının bir hissəsi azad edilmişdir.*

*Bu gün biz Lələtəpə ərazisindəyik. Hələ bir neçə ay bundan əvvəl bu ərazi işğal altında idi. Biz bu işğala son qoyduq. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərində işğal altında olan 2000 hektardan çox torpaq uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edilmişdir. Minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu tam nəzarət edir".*

Qoşunlarımızın təmas xəttindəki uğurlu əməliyyatları bir sıra reallıqları da üzə çıxardı! İlk növbədə məlum oldu ki, Azərbaycan xalqının milli maraqlarını daim önə çəkən, mürəkkəb geosiyasi məkanda qətiyyətli, düzgün qərarlar qəbul etmək cəsarəti ilə seçilən qüdrətli siyasi lideri, rəhbəri var. Həmin günlərdə Ali Baş Komandanımızın düşmənin hərbi təxribatlarının qarşısının alınması və layiqli cavabının verilməsi ilə bağlı əmrləri ordumuzun böyük ruh yüksəkliyinə səbəb olmaqla yanaşı, xalqımızın da böyük dəstəyi ilə qarşılandı! Qəlbində vətən, yurd sevgisi olan, ordusu ilə qürur duyan, onun uğuruna ürəkdən sevinən hər bir vətəndaş üçün aprel döyüşləri son dərəcə şərəfli və əlamətdar oldu.

Aprel döyüşləri zamanı Azərbaycan Silahlı Qüvvələrinin - hərbçilərimizin döyüş və qələbə ruhu da insanlarda böyük qürur və sevinc hissləri doğurdu. Bir daha təsdiqləndi ki, ötən illər hədər getməyib - 1994-cü ilin may ayında atəşkəs barədə sazişin imzalanmasından sonra Azərbaycanda ordu quruculuğu və ölkənin müdafiə qabiliyyətinin artırılması istiqamətində işlər göz qabağındadır. Bu gün Azərbaycan Silahlı Qüvvələri yüksək döyüş hazırlığına malik peşəkar, hərbi-texniki vərdişlərə dərindən yiyələnmiş mükəmməl, vətənpərvər kadrlardan ibarətdir. Ən müasir texnika və hərbi avadanlıqlarla təchiz edilən, milli ruhu yüksək olan Azərbaycan Ordusu qısa zamanda torpaqlarımızın işğaldan azad edilməsinə qadir olduğunu sübuta yetirdi.

Vətənpərvərlik elə bir hissdir ki, insanda mübarizlik, fədakarlıq, məğlubedilməzlik, qəhrəmanlıq yaradır. Vətənini dərin məhəbbətlə sevən insan özünü həmişə güclü hiss edir. Başqa sözlə, insanda vətənpərvərlik hissi qəhrəmanlığın əsasını qoyan amildir. Azərbaycan şanlı tarixi, əfsanəvi qəhrəmanları və alovlu vətənpərvərləri ilə həmişə fəxr edir. Məhz vətənpərvərlik duyğuları dərin olduğu üçün Azərbaycan xalqı dünyada qəhrəman xalq kimi tanınır. Odur ki, şanlı tariximizlə və əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr etməyimiz təbiidir. Zaman-zaman yetişən bu qəhrəmanlar deyilənləri bir daha təsdiqləyir. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Səmədağa Mehmandarov, Əliağa Şıxlınski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə, Əliyar Əliyev, Mübariz İbrahimov, Fərid Əhmədov... Azərbaycan xalqının müxtəlif dövrlərdə vətənpərvər, qəhrəman xalq olduğunu təsdiqləyən igid və cəsur oğullarının nümayəndələridir.

Prezident İlham Əliyev bu günlərdə vətənpərvərlik nümunəsi nümayiş etdirən gənclərin bir qrupuna müraciət edərək demişdir: "Siz hərbçi peşəsini seçmisiniz. Bu, çox şərəfli peşədir. Ordumuzun gücü ilk növbədə ordumuzda hökm sürən vətənpərvərlik ruhundadır. Döyüş qabiliyyətimiz də, vətən sevgisi də buna bağlıdır. Hər bir Azərbaycan gənci, hər bir vətəndaş vətənpərvər olmalıdır, vətəni hər şeydən çox sevməlidir və vətən uğrunda öz qəhrəmanlığını göstərməlidir. Sizin qarşınızda çox gözəl nümunələr var. Bu gün Lələtəpə ərazisində olarkən düşmənlə üz-üzə dayanan hərbçilərlə görüşərkən bir daha gördüm ki, bizim gənclərimiz nə qədər vətənpərvərdir, peşəkardır, vətənə bağlıdır".

Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında vətən uğrunda qəhrəmancasına həlak olmuş igidlərimizin ibrətamiz həyatı, şəxsi nümunəsi dövlətimizin apardığı hərbi-vətənpərvərlik tərbiyəsi işində ön plana keçib. Odur ki, bu gün də öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetişməkdədir.

Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin gücləndirilməsi əsasən təhsil prosesi ilə sıx bağlıdır. Azərbaycan mədəniyyətinə, təhsilə, vicdan azadlığına və bir çox digər sahələrə diqqət yönəltmədən bu duyğuları tərbiyə etmək mümkün deyil. Ona görə də ali və orta məktəb müəllimləri bütün qüvvə və bacarıqlarını doğma vətənə sədaqətli, hərtərəfli inkişaf etmiş, müstəqilliyimizi və dövlətçiliyimizi göz bəbəyi kimi qorumağa hazır olan nəslin yetişdirilməsinə sərf etməlidir. Fikrimizcə, hərbi dərslərə diqqət artırılmalıdır. Bu sahədə ali təhsil müəssisələri ilə hərbi hissələr arasında əməkdaşlıq yaradılmalıdır. Şagirdlərin və tələbələrin hərbi idman yarışları təşkil edilməlidir, sadələşdirilmiş hərbi təlimlər keçirilməli, xüsusi elmi və pedaqoji hazırlıqlı şəxslər tərəfindən yeniyetmə və gənclər arasında ideoloji-təbliğat işi gücləndirilməlidir. Təhsil müəssisələrində "Silahlı Qüvvələr aylığı", "Bugünün tələbəsi sabahın zabitidir" və s. mövzularda müntəzəm tədbirlər keçirilməlidir. Gənclərin hərbi hissələrdə əsgər və zabitlərlə görüşləri təşkil edilməli, çağırış vaxtı hərbi komissarlıqlarda yolasalma mərasimlərində gələcək çağırışçıların fəal iştirakı təmin edilməlidir. Gənclərin Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri ilə görüşlərinin təşkili də önəmlidir. Bundan başqa, sosial və humanitar fənlərin tədrisi azərbaycançılıq ideologiyası üzərində qurulmalı, Azərbaycanıın tarixi, coğrafiyası, hüdudları dəqiq şəkildə tədris edilməli, əhalinin etnik kökləri, dini tərkibi düzgün və qərəzsiz şəkildə əks olunmalıdır. Dərsliklərdə ömrünü xalqının maariflənməsinə, vətənin azadlığına və hərtərəfli inkişafı uğrunda mübarizəyə həsr etmiş şəxsiyyətlərin həyat və fəaliyyəti geniş əksini tapmalıdır. Həmçinin tarixi qəhrəmanlarımızın, vətənin azadlığı və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş milli qəhrəmanların, şəhidlərin və Qarabağ müharibəsi veteranlarının mərdlik və hünərləri istər dərslərdə, istərsə də dərsdənkənar tədbirlərdə ətraflı öyrənilməlidir. Tarixi qəhrəmanlarımızın, dövlət xadimlərimizin şərəfinə adlı təqaüdlərin təsis edilməsi, təbii ki, gənclərin milli ruhda tərbiyəsində mühüm rol oynaya bilər. Təqdirəlayiq haldır ki, bu gün istər respublikanın ümumtəhsil və orta ixtisas, istərsə də ali məktəblərində gənclərə hərbi-vətənpərvərlik hissləri aşılamaq üçün əlverişli imkanlar mövcuddur.

Azərbaycanın vətənpərvər ruhlu böyük gənclər ordusunun olması qürur doğuran faktdır. Əgər əvvəllər gənclərin vətənpərvərlik tərbiyəsi ilə yalnız dövlət məşğul olurdusa, indi Azərbaycan gənclərinin özləri könüllü şəkildə vətənpərvərliklə bağlı müxtəlif layihələr həyata keçirirlər.

9 noyabr - Bayraq Günündə gənclərin böyük coşqu ilə yürüşə çıxması onların vətən sevgisindən, milli həmrəyliyindən, vahid azərbaycançılıq məfkurəsi ətrafında sıx birliyindən, dövlət rəmzlərinə hörmət və ehtiramlarından irəli gəlirdi. Bu, bizləri həm sevindirir, həm də qürurlandırır.

Azərbaycan gəncləri onlara bütün işlərdə dəstək olan Prezident İlham Əliyevin ətrafındadırlar. Onlar ölkə hüdudlarından kənarda da Azərbaycan həqiqətlərini bütün dünyaya yaymaqda böyük iş görürlər. Gənclərimizin səsi dünyanın bir çox tanınmış ali məktəblərindən, elmi-tədqiqat mərkəzlərindən gəlir. Onlar ölkə sərhədlərindən kənarda olsalar da, ürəkləri vətənlə, Azərbaycanla birgə döyünür.

Digər tərəfdən, tarix sübuta yetirmişdir ki, peşəkar, igid ordusu olan xalqın müstəqilliyi də əbədidir. Ölkəmizdə əsası ulu öndər tərəfindən qoyulmuş hərbi quruculuq siyasəti hazırda onun layiqli varisi - Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən inamla davam etdirilir. Ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. Təkcə bir faktı demək lazımdır ki, son 13 ildə respublikanın hərbi büdcəsi on dəfədən çox artaraq bütövlükdə işğalçı Ermənistanın dövlət büdcəsinə çatıb. Azərbaycan Ordusu bu gün regionda NATO standartları səviyyəsində inkişaf edən nizami, peşəkar və çevik orduya çevrilib.

İndi nəinki arxa cəbhədə, hətta düşmənlə üzbəüz təmas xəttində yerləşən hərbi diviziya və bölmələrdə özünü göstərən hərbi quruculuq prosesi yalnız böyük qürur və sevinc hissi doğurur. Azərbaycan Prezidenti cənab İlham Əliyevin məhz belə bir məqamda düşməndən azad edilmiş Lələtəpə zirvəsində olması mühüm siyasi, mənəvi-psixoloji əhəmiyyətə malikdir. Cənab İlham Əliyevin Ali Baş Komandan kimi hərbi geyimdə ön cəbhəyə getməsi ilk növbədə cəmiyyətdə döyüş və mübarizə ruhunun yüksəldilməsi baxımından vacib olmaqla yanaşı, hələ müharibənin bitmədiyi, düşmənə hər an layiqli cavab verilə biləcəyi barədə cəmiyyətə açıq mesajdır.

Əlində silah sərt soyuqda kirpik qırpmadan düşmənlə üz-üzə dayanan əsgər və zabitlərin vətən, torpaq sevgisini duymaq, döyüş ovqatını, düşmənə qarşı mübarizə ruhunda köklənən yüksək mənəvi-psixoloji durumunu yaxından hiss etmək üçün cəbhə bölgəsinə yollanan cənab İlham Əliyevin bir daha xalqın və dövlətin maraqlarının ayıq-sayıq, dəyanətli keşikçisi olduğunu sübuta yetirdi!

Son illər Silahlı Qüvvələrin müasir silah-sursat və hərbi texnika ilə təchizatında əsaslı dəyişikliklər hiss edilir. Ali Baş Komandan İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğının nəticəsi olaraq ucqar döyüş nöqtələrində yaradılmış şərait şəxsi heyətin yüksək mənəvi-psixoloji ovqatda köklənməsinə, döyüş və mübarizə əzminə də müsbət təsirini göstərir. Əminliklə demək olar ki, bu gün Azərbaycan əsgərləri vətənpərvər, yüksək mənəvi-psixoloji hazırlığı olan, yetərincə müasir dünyagörüşünə malik gənclərdir. Onların həyat məktəbi adlandırdıqları hərbi xidmət yaşam tərzlərində müsbət iz buraxmaq və formalaşmalarına təsir göstərməklə bərabər, həm də Azərbaycan Ordusunun qarşısında müəyyənləşən vəzifələrin tezliklə gerçəkləşməsinə inam yaradır. Ölkə başçısının cəbhə bölgəsinə səfəri bir daha göstərdi ki, müxtəlif atıcı silahlarla düşmənin mövqelərini nəzarətdə saxlayan əsgər və zabitlər əmrə müntəzir vəziyyətdə dayanıblar. Səngərdəki cəsur hərbçilərimizin döyüş hazırlığına, yüksək vətənpərvərliyinə, dövlətə, xalqa bağlı olduqlarına heç bir şübhə ola bilməz!

Dövlət başçısının hərbçilərlə görüşdə dediyi kimi, Azərbaycan Ordusu kifayət qədər mürəkkəb relyef şəraitində üzərinə düşən çətin vəzifələrin öhdəsindən uğurla gəlib: *"Onu da qeyd etməliyəm ki, əks-hücum əməliyyatımız əlverişsiz mövqelərdən başlamışdır. Biz yüksəklikləri, təpələri işğalçılardan azad etmişik və böyük qəhrəmanlıq göstərmişik. Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir. Biz şəhidlər verdik, Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgərlərimiz, zabitlərimiz olubdur. Mən hərbi hospitalda yaralı əsgər və zabitlərimizlə görüş zamanı onlarda ruh yüksəkliyi gördüm. Onların bir arzusu var idi: tezliklə sağalmaq və döyüş bölgələrinə qayıtmaq".*

Aprel döyüşlərindən sonra xalqımızın döyüş və mübarizə ruhu daha da yüksəlib. 1990-cı illərin əvvəllərindən fərqli olaraq, cəmiyyətin bütün təbəqələri Ali Baş Komandanın ətrafında sıx birləşərək milli birlik, həmrəylik nümayiş etdirirlər. Yeniyetmələrdən tutmuş ahıl insanlaradək hamının əlinə silah alaraq cəhbəyə yollanmağa hazır olduğunu bəyan etməsi hərbi-psixoloji üstünlüyün əldə edilməsi və vətənpərvərlik ruhunun yüksəldilməsi baxımından vacib məqamlardandır.

Azərbaycan aprel ayındakı qısamüddətli hərbi əməliyyatlarda qazandığı real zəfərlərlə münaqişənin həllini süni şəkildə uzatmaq yolu tutmuş qüvvələrə də ciddi və sərt mesaj verdi: danışıqlar prosesi sonsuz və mənasız şəkildə uzadıla bilməz və Azərbaycan beynəlxalq hüquq normalarına söykənərək ən qısa müddətdə öz torpaqlarını azad etmək, ərazi bütövlüyünü və suverenliyini təmin etmək əzmindədir. Ən əsası, Ermənistanın hansı mövqe tutmasından asılı olmayaraq, Azərbaycan iqtidarı xalqının və qüdrətli ordusunun köməyi ilə bu addımı atmağa qadirdir!

Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan Ordusu təcavüzkarın istənilən hədəfini ən qısa zamanda məhv etmək iqtidarındadır: *"Bizim əsgərlərimiz, zabitlərimiz vətən uğrunda, torpaq uğrunda ölümə getməyə hazırdırlar. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu öz gücünü göstərdi. Ermənistan uzun illər öz ordusu haqqında yalanlar, miflər uydururdu. Guya onların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, hansı ordu yenilməzdir. Azərbaycan Ordusu yenilməz ordudur. Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir. İşğal edilmiş torpaqlarda, Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, bu gün biz onu məhv edə bilməyək. Bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır".*

İşğal faktı ilə barışmayacağını hər zaman bəyan edən Azərbaycan danışıqların sonadək nəticəsiz qalacağı təqdirdə münaqişənin həllində güc yoluna əl atacağını heç zaman gizlətmir. 1994-cü ilin 12 mayında atəşkəs rejiminin tətbiqini nəzərdə tutan Bişkək müqaviləsinin imzalanmasından 22 il ötsə də, Yerevanın qeyri-konstruktiv, təcavüzkar siyasəti üzündən beynəlxalq birliyin münaqişəni dinc yolla tənzimləmək cəhdləri fayda verməyib. Ötən illərdə ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə aparılan üzücü və gərgin danışıqlar prosesi bir neçə dəfə problemi real həll müstəvisinə yönəltsə də, Ermənistan rəhbərliyinin aşkar siyasi cığallığı və qətiyyətsizliyi üzündən sülhə gəlmək mümkün olmayıb.

Bu cığallıq, riyakarlıq aprel döyüşlərindən sonra da davam edir. Aşkar görünən həm də budur ki, "demokratiya çətiri" altında özünün imperialist siyasətini yürüdən, geosiyasi və iqtisadi maraqları ətrafında reveranslar edən bəzi aparıcı dövlətlərin "ikili oyunları" beynəlxalq hüququ iflic duruma gətirib. Qarabağ münaqişəsinə ədalətsiz və "ikili standart" yanaşma da kifayət qədər üzdədir. Halbuki BMT ilə yanaşı, ATƏT-in, AŞ PA-nın, İKT-nin sənədlərində də Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktı birmənalı qeyd olunub. Bütün bunlar hüquqi və siyasi baxımdan xeyrimizə olsa da, reallıqda vəziyyət dəyişmir.

Fəqət ölkə başçısının ön cəbhəyə səfəri, hərbçilərlə görüşləri belə qüvvələrə sərt mesaj idi. Respublikamız milli maraqları ilə bağlı məsələlərdə heç bir dövlətə güzəştə getmək niyyətində deyil! Zorən cəlb edildiyimiz "müharibədə müvəqqəti itirdiyimiz ərazilərin son qarışınadək geri qaytarılması" əzmkarlığı ilk gündən danışıqlarda Azərbaycanın qəti, birmənalı və prinsipial mövqeyidir. Milli maraqları daim uca tutan, xalqın iradəsinə söykənən ölkə rəhbərliyi 22 ilə yaxın müddətdə prinsipial və qətiyyətli mövqeyindən bir addım belə geri dönməyib!

Danışıqlarda rəsmi Bakının daim önə çəkdiyi dəyişməz mövqeyi hər kəsə məlumdur: Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin qeyd-şərtsiz təmin olunması, məcburi köçkünlərin doğma yurdlarına qaytarılması və sonrakı mərhələdə Dağlıq Qarabağın hüquqi statusunun müəyyənləşdirilməsi kimi bizim üçün münaqişənin başqa diplomatik həll formulu, variantı və ya mexanizmi yoxdur!

Ermənistanın danışıqlar prosesində manipulyasiya etmək imkanları artıq tükənib. Azərbaycanın uğurlu xarici siyasəti nəticəsində küncə sıxılan İrəvan bütün səylərini danışıqları süni şəkildə uzatmaq və pozmaq məqamında qurub. Havadarlarının təsiri altında təcavüzkarlıq siyasətindən əl çəkməyən Ermənistan danışıqlar prosesinin qeyri-müəyyən vaxta qədər uzanmasını indi özü üçün ən sərfəli variant hesab edir.

Tarixən qarşıdurmada olan bütün dövlətlər bu qaçılmaz reallıqla barışmalı olublar ki, hər bir münaqişə son nəticədə danışıqlar masası arxasında, sülh yolu ilə həllini tapmalıdır. Fəqət bu yanaşmanın özü də şərtidir. Heç bir danışıq prosesi müddətsiz, nəticəsiz ola bilməz. Hər bir danışıq prosesində qarşılıqlı güzəştlər də beynəlxalq hüquqla müəyyən olunur. Təcavüzkarla təcavüzə məruz qalan dövlətdən eyni dərəcədə güzəşt tələb etmək isə beynəlxalq hüquq normalarını ayaq altına atmaqdır. Həmsədr dövlətlərin məsuliyyətdən tamamilə yayınması, münaqişə tərəflərinin "istənilən razılaşması"nın məqbul sayılacağını bəyan etməsi isə prinsipsizlik nümunəsi kimi son dərəcə üzücüdür.

Proseslərin gedişi isə göstərir ki, ölkəmiz artıq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin keyfiyyətcə yeni mərhələyə transformasiyasına və siyasi-hərbi yolla həllini hər an gündəmə gətirməyə hazırdır. Bu mərhələdə Azərbaycanın diplomatik səyləri təkcə Ermənistan rəhbərliyinin ifşasına deyil, həm də hərb yolunun nə vaxtsa qaçılmaz variant olacağını "sülh və tərəqqipərvər" dövlətlərə sübut etmək istiqamətində qurulub.

*"Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasa, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır. Ermənistanın siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, işğalçılıq hərəkətləri onları uçuruma aparır. Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü ordumuz var. Biz ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik",* - deyə Ali Baş Komandan hərbçilərlə görüşündə bir daha bəyan etdi.

*Bəli, Azərbaycan Ordusu bu gün torpaq uğrunda canından hər an keçməyə hazır olan rəşadətli, igid, vətənpərvər hərbçilərdən ibarətdir.*

*Cəbhə bölgəsinə səfər də göstərdi ki, Ali Baş Komandan məmləkətinə zəfər bəxş edəcək əsgərinə, əsgər isə müzəffər sərkərdəsinə güvənir!*

**Nurlana ƏLİYEVA,**
**YAP İdarə Heyətinin üzvü,**
**YAP Qadınlar Şurasının sədri, professor**